Təbii sərvətlərimiz həm də milli sərvətimizdir

Kitabda müəllif muxtar respublikanın təbii sərvətlərinin tarixi məxəzlərdə öyrənilməsini araşdırmışdır



Muxtar respublikanın təbii sərvətləri həm də bölgə iqtisadiyyatının gücləndirilməsində mühüm əhəmiyyət kəsb edən milli sərvətimizdir. Qürur hissi keçirməmək mümkün deyil ki, bu qiymətli sərvətlərdən səmərəli istifadə olunması, zənginləşdirilməsi, gələcək nəslə ərməğan edilməsi diqqət mərkəzində saxlanılır. Mətbuatda doğma diyarın təbiəti, yeraltı və yerüstü sərvətləri barədə maraqlı yazılarla çıxış edən Feyruz Bağırovun bir neçə illik gərgin əməyinin bəhrəsi olan "Naxçıvanın təbii sərvətləri" adlı kitabında da yuxarıda bəhs olunan məsələlərə aydınlıq gətirilir, çoxlarımız üçün tanış olmayan sərvətlərdən söhbət açılır.

Təbiəti mühafizə, kənd təsərrüfatı işçiləri, sahibkarlar, eləcə də geniş oxucu kütləsi üçün nəzərdə tutulan vəsaitin elmi məsləhətçiləri kənd təsərrüfatı elmləri namizədi, dosent Ə.Quliyev, biologiya elmləri namizədi, dosent İsmayıl Sadıqov və kənd təsərrüfatı elmləri namizədi Sahib Hacıyevdir.

21 fəsil və nəticədən, təbiət terminlərinin izahlı lüğəti, istifadə edilmiş ədəbiyyat, xəritə və fotoşəkillərdən ibarət olan kitabda müəllif öncə muxtar respublikanın tarixinə qısa ekskurs etməyi vacib saymış, təbii sərvətlərimizin tarixi məxəzlərdə öyrənilməsini araşdırmışdır. Təbii sərvətlərimizin qorunması ilə bağlı son illərdə həyata keçirilən tədbirlərdən geniş bəhs edən müəllif muxtar respublikada yaradılmış müxtəlif aidiyyəti qurumların fəaliyyətinə böyük dövlət qayğısından danışır.

Regionun relyefini, geomorfoloji quruluşunu, iqlimini, hidroqrafiyasını, hidrologiyasını, təbiət və təbii sərvətlərlə bağlı digər sahələri tədqiqat obyektinə çevirən müəllif muxtar respublikada yerləşən 22 göl, çoxlu kəhriz, mineral bulaqlar, nadir bitkilər, həmçinin yüksək müalicəvi əhəmiyyəti olan dərman bitkiləri haqqında ətraflı məlumat verir. F.Bağırov muxtar respublikada yetişdirilən ən zəruri ərzaq məhsullarından danışarkən qeyd edir ki, belə məhsulların keyfiyyəti ona görə yüksəkdir ki, regionumuzun havası, suyu son dərəcə təmizdir, ekoloji tələblərə cavab verir. Müəllif bu məhsulların müalicəvi əhəmiyyətindən danışmağı da unutmur. Yeri gəlmişkən belə məhsullarla yanaşı, müalicəvi əhəmiyyətli dərman bitkilərinin muxtar respublika ərazisində geniş yayılmasından, bu sərvətlərdən təbabətdə istifadə olunmasına başlandığından da danışır.

Akademik Mirəli Qaşqayın "Dağ mədən ehtiyatlarına görə Naxçıvan Azərbaycanın Uralı sayılır" fikrinə münasibətini müəllif araşdırmalar apardığı muxtar respublikada 56 dağ mədəninin sərvətlərindən geniş bəhs edir. Bu yataqlarda olan sərvətlərin kimyəvi tərkibləri, yataqların sahələri, xammal ehtiyatı barədə də oxucuları məlumatlandırır. Kitabın dəyərini artıran cəhətlərdən biri də müəllifin bəhs etdiyi mövzularda vaxtilə Naxçıvanda olub tədqiqat aparan mütəxəssislərin, alimlərin yurd yerinin sərvətləri ilə bağlı gəldikləri qənaətlərə öz münasibətini bildirməsidir. Digər bir tərəfdən kitabda bəzi təbiət terminlərinin izahlı lüğətinin verilməsi də təqdirolunasıdır.

Vaqif ABDULLAYEV
Şıxmahmud kənd orta məktəbinin müəllimi